# Qarabağ bizim üçün ədalət, milli qürur məsələsidir



**_Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Almaniyanın ARD televiziya kanalına müsahibəsində Qarabağ münaqişəsi ilə bağlı bir çox aktual məsələlərə toxunub. Cənab İlham Əliyevin alman jurnalistin aşkar qərəzli, qeyri-obyektiv suallarına dərin məntiqə əsaslanan olduqca aydın və məzmunlu cavablarından son dərəcə məmnun qaldım._**

ARD müxbirinin "Siz orada – muxtar regionda hansı təsirə malik olmaq istəyirsiniz? Bu, özü-özlüyündə ziddiyyət təşkil edir" – sualına cavabında Azərbaycan Prezidenti demişdir: "Xeyr. Əvvəla, biz heç bir muxtar region razılığına gəlməmişik. Bu, birincisi. Biz bu razılığa gəlməmişik. Biz bunu təklif edəndə ermənilər bunu rədd edirdilər. Onlar bizim razı olmadığımız müstəqillik tələb edirdilər. İndi ortalıqdakı reallıqlar dəyişib. Biz dəfələrlə eşitmişik ki, reallıqlar var və siz onları nəzərə almalısınız. Yaxşı. Biz dəyişdik reallıqları. İndi onlar bunları nəzərə almalıdır və bu, 27 il ərzində bizim onlara təklif etdiklərimiz ola bilsin, artıq öz qüvvəsini itirib".

Müsahibədəki başqa bir maraqlı sual jurnalistin nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmli olması ilə əlaqədar sualı idi. Fikrimcə, Azərbaycan Prezidentinin bu sualın cavabında səsləndirdiyi təsirli sözlər dünyanın siyasət müntəxabatına düşə bilər: "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir".

Düşünürəm ki, belə parlaq cavabı yalnız dövlətini və xalqını sonsuz məhəbbətlə sevən, bu yolda hər şeyə hazır olan bir şəxsiyyət söyləyə bilərdi. Prezident İlham Əliyev məhz belə görkəmli dövlət xadimidir! Bütün Azərbaycan vətəndaşları kimi, mən də xalqımızın sevimli lideri İlham Əliyev ilə sonsuz qürur duyuram!

Dövlətimizin başçısı müsahibədə, həmçinin vurğuladı ki, beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının (TŞ) 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik.

Bəli, Azərbaycan bu gün Qarabağda tarixi həqiqəti bərpa edir. Ermənistan təcavüzkar və işğalçıdır. Onlar işğal etdikləri ərazilərdə etnik təmizləmə həyata keçiriblər. Hətta faşistlər belə qəddarlığa yol verməyiblər.

Ermənistanın silahlı qüvvələri hazırda dünyanın gözü qarşısında ölkəmizin yaşayış məntəqələrini atəşə tuturlar. Bu zaman evlər dağıdılır, dinc sakinlər, uşaq, qoca və qadınlar qətlə yetirilir.

Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı törətdiyi vəhşilikləri, zorakılıqları bəzi Qərb dövlətlərinin rəsmiləri, eləcə də KİV mənsubları görmək istəmirlər. Görünür, onlar erməni lobbisinin saxta anti-Azərbaycan təbliğatının təsiri altındadırlar.

Azərbaycan haqlı tərəfdir. Zərrə qədər şübhə etmirəm ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Milli Ordumuz ən yaxın günlərdə doğma torpaqlarımızı son qarışınadək yağı düşməndən azad edəcək. Bu, bizim haqqımızdır.

Azərbaycan xalqı qürurlu və istedadlı xalqdır. Xalqımızın şərəflə, başıuca yaşamağa haqqı var və buna tamamilə layiqdir. Qələbə bizimdir və zəfər günü yaxındadır! Biz xoşbəxt insanlarıq ki, tariximizin bu şanlı səhifələrinin yazılmasına şahidlik edirik.

**_Hüseynbala MİRƏLƏMOV,_**
**_yazıçı-publisist_**